AZERBAIJAN
# Olimpiya dünyası
www.olimpiyadunyasi.az
*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*
*№ 9 (1469), 16 - 29 mart 2021-ci il*
*Qəzet 2001-ci ildən çıxır.*



## Tomas Bax yenidən Beynəlxalq Olimpiya Komitəsinin prezidenti seçilib

Tomas Bax yenidən Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti seçilib.

Seçki BOK-un 137-ci sessiyası çərçivəsində təşkil olunub. Səsvermə zamanı 93 nəfər onun lehinə, bir nəfər isə əleyhinə səs verib.

T.Bax bu posta yeganə namizəd olub. O, növbəti 4 il müddətində quruma rəhbərlik edəcək.

Sessiyanın əvvəlcə Afinada keçirilməsi planlaşdırılsa da, lakin koronavirus pandemiyası səbəbindən tədbir onlayn baş tutub. Bu formada iclas, təşkilatın bir əsrdən çox tarixi ərzində ikinci dəfə keçirilir.

Altmış yeddi yaşlı Tomas Bax 2013-cü ildə Buenos Ayresdə BOK prezidenti seçilib. O, bu vəzifədə belçikalı Jak Roqqu əvəz edib. İclasda, həmçinin 2025-ci ilədək Olimpiya Hərəkatının 15 bənddən ibarət olan inkişaf strategiyası təsdiqlənib. Bu, 2013-cü ildə təsdiqlənmiş proqramın davamı olacaq.



## Çingiz Hüseynzadə: “Biz bütün idmançılarımızı peyvənd etməyə qadirik”

“Tokio-2020 Yay Olimpiya Oyunlarında iştirak edəcək idmançılara peyvənd vurulması zəruri deyil”.

Bu sözləri Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə deyib.

Onun sözlərinə görə, iştirakçı ölkələr qarşısında belə bir şərt qoyulmayıb. Ç.Hüseynzadə bildirib ki, idmançılar və nümayəndə heyətinin üzvləri peyvənd olunsalar belə, onlar yarış müddətində 4 gündən bir PZR test verməlidirlər: “Bizim hələ də Tokioya gedəcək idmançılarımızın tam siyahısı məlum deyil. Bundan başqa, lisenziya yarışlarında iştirak etməli olan idmançılarımızdan bəziləri bu müddət ərzində koronovirusa yoluxduqlarına görə beynəlxalq yarışlara da qatıla bilməyiblər. Onların qanında artıq virusa qarşı antitel formalaşıb”.

MOK-un vitse-prezidenti qeyd edib ki, bütün göstəricilər nəzərə alınaraq, olimpiadada iştirak edəcək idmançılar arasında peyvəndlənmə prosesinə fərdi yanaşılacaq: “Çünki bu, fərdi məsələdir. Burada hər bir idmançıya da fərdi yanaşma nümayiş etdirəcəyik. Lazım olacağı təqdirdə isə biz bütün idmançılarımızı peyvənd etməyə qadirik və onlar zəruri hallarda növbəsiz olaraq bu prosesə cəlb olunacaqlar”.



## Taekvondoçularımız 1 illik fasilədən sonra ilk yarışda 3 medal əldə etdilər

Taekvondo üzrə milli komandamız bir illik fasilədən sonra ilk beynəlxalq yarışına çıxıb. Bu, İstanbulda keçirilən ənənəvi “Turkish Open” turniridir. Komandamız yarışda 12 (11 kişi, 1 qadın) idmançı ilə təmsil olunub. İstanbulda sayca 8-ci dəfə keçirilən beynəlxalq yarışı taekvondoçularımız 1 qızıl, 1 gümüş və 1 bürünc medalla başa vurublar. Komandamıza qızıl medalı G1 kateqoriyalı yarışda İran əsilli idmançımız Milad Beigi Hərçəqani qazandırıb. Hələ ki Olimpiadada iştirakı rəsmiləşmiş yeganə taekvondoçumuz olan Milad - 87 kq çəki dərəcəsində bütün rəqiblərinə qalib gəlib.

Son Olimpiya çempionumuz Radik İsayev (+87 kq) isə “Turkish Open” turnirini gümüş medalla başa vurub.

Yarışın üçüncü günündə komandamızın üzvü Ayxan Tağızadə (-74 kq) turnirin bürünc medalına sahib çıxıb.

## Karateçilərimiz İstanbulda 1 gümüş və 3 bürünc medal qazandılar

Karate üzrə milli komandamız İstanbulda keçirilən Premyer Liqa yarışında iştirak edib. Yarışda 75 ölkədən 865 karateçi mübarizə aparıb. Bir illik fasilədən sonra millimiz ilk ciddi sınağında Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirovun rəhbərliyi altında 21 idmançı ilə təmsil olunub. Komandamız nüfuzlu turniri bir gümüş və üç bürünc medalla başa vurub.

Belə ki, karateçilərimizdən kişilər arasında mübarizə aparan Firdovsi Fərzəliyev (60 kq) yarışın gümüş medalını qazanıb. Kişilərin yarışında digər karateçimiz Asiman Qurbanlı (+84) isə bürünc medala sahib olub. Turnirdə qadınlar arasında gücünü sınayan İrina Zaretska (68 kq) da üçüncü yerə layiq görülüb. Daha bir bürünc medalı isə kata komandamız (Rövşən Əliyev, İsmayıl Quliyev, Tural Balcanlı) qazanıb.

Qeyd edək ki, beynəlxalq hakimlərimiz - Cahangir Babayev, Vüqar Kərimov və Anar Allahverdiyev nüfuzlu Premyer Liqa turnirini idarə edənlər arasında yer alıblar.

Milli komandamız turnirdən əvvəl İstanbulda 10 günlük təlim-məşq toplanışında iştirak edib.




## *Üçüncü Avropa Oyunları 3 şəhərdə keçiriləcək*

Polşada təşkil olunacaq III Avropa Oyunlarının keçiriləcəyi şəhərlərin siyahısına daha biri əlavə edilib. Polşanın Krakov və Malopolska şəhərləri ilə yanaşı, Sileziya da 2023-cü ildə keçiriləcək Avropa Oyunlara ev sahibliyi edəcək. Bu barədə qərar Avropa Olimpiya Komitələri rəhbərliyinin, Beynəlxalq Olimpiya Komitəsi nümayəndələrinin, ölkə rəhbərliyi, habelə digər maraqlı tərəflərlə keçirilən işgüzar görüşdən sonra qəbul edilib. Bununla yanaşı, atletikanın da Oyunların proqramına daxil edilməsi müzakirə edilib və bu barədə qərarın yaxın zamanlarda veriləcəyi gözlənilir. Təşkilatçılar atletika yarışlarını Sileziya şəhərindəki stadionda keçirməyi planlaşdırırlar.

THE EUROPEAN GAMES

Qeyd edək ki, üçüncü Avropa Oyunları 2023-cü il iyunun 9-dan 25-dək keçiriləcək. Tarixdə ilk Avropa Oyunları 2015-ci il iyunun 12-28-də Bakıda təşkil olunub.

## *Anons*

*Avropa Olimpiya təsnifat turniri üçün komandamızın heyəti açıqlandı* Səh. 2

Novruz - keçmişdən gələcək nəsillərə miras qalan el bayramı Səh. 3

Vətənpərvər idmançılar yetişdirən “Elxan” idman klubu Səh.4

*Təhlükəyə meydan oxuyan sürət formulası* Səh.5

“Karabakh is Azerbaijan” seriyasında böyük final Səh.6

Azərbaycan Premyer Liqası: “Neftçi” liderliyini qorudu Səh.7

# Avropa Olimpiya təsnifat turniri üçün komandamızın heyəti açıqlandı

Martın 18-dən 21-dək Macarıstanın paytaxtı Budapeştdə güləş üzrə Avropa Olimpiya təsnifat turniri keçiriləcək. Azərbaycan Güləş Federasiyasının (AGF) prezident əvəzi Namiq Əliyev hər çəkidə iki idmançının Olimpiadaya lisenziya qazanacağı yarışda iştirak edəcək heyəti açıqlayıb.

Yunan-Roma və sərbəst güləş üzrə yığmalarımızın üzvləri ilə görüşən federasiyanın rəhbəri bu ilin ilk lisenziya turnirində əksər çəki dərəcələrində Olimpiya Oyunlarına vəsiqə qazanılacağına inandığını dilə gətirərək, güləşçiləri bu fürsətdən yararlanmağa çağırıb və onlara məsul yarışda uğurlar arzulayıb.



Martın 18-19-da xalça üzərinə sərbəst güləşçilər çıxacaqlar. Ölkəmizi İslam Bazarqanov (57 kq), Hacı Əliyev (65 kq), Hacımurad Hacıyev (74 kq), Abubakr Abakarov (86 kq), Camaləddin Məhəmmədov (125 kq) təmsil edəcəklər. Onlar baş məşqçi Namiq Abdullayev, böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında Budapeştdə uğur qazanmağa çalışacaqlar.

Yunan-Roma güləşçilərimiz baş məşqçi Aleksandr Tarakanov, böyük məşqçi Rövşən Bayramov və məşqçi Həsən Əliyevin rəhbərliyi altında martın 20-21-də mübarizə aparacaqlar. Heyətdə Murad Məmmədov (60 kq), İslambek Dadov (67 kq), Sənan Süleymanov (77 kq), İslam Abbasov (87 kq), Murad Lokyayev (97 kq) və Beka Kandelaki (130 kq) yer alıblar.

Xatırladaq ki, qadınlardan ibarət millimizin heyətində Leyla Qurbanova (53 kq), Alyona Kolesnik (57 kq), Tatyana Omelçenko (62 kq), Elis Manolova (68 kq) və Gözəl Zutovanın (76 kq) Macarıstandakı yarışda çıxışı nəzərdə tutulub. Onlar baş məşqçi Aslan Ağayev və məşqçi Rövşən Umudovun tapşırıqlarını icra edəcəklər.



## Gimnastika üzrə daha bir Dünya Kuboku ləğv edildi

Yaponiya Gimnastika Assosiasiyası və Beynəlxalq Gimnastika Federasiyası (FİG) Tokioda keçirilməsi planlaşdırılan idman gimnastikasının çoxnövçülük yarışı üzrə Dünya Kubokunu ləğv etməyə qərar verib.

Buna səbəb kimi dünya miqyasında koronavirusla əlaqədar səyahət məhdudiyyətləri göstərilib.

Mayın 4-də keçirilməli olan turnir Tokio Yay Olimpiya Oyunlarına test xarakterli idi. FİG test yarışı üçün yeni məkan tapmağa çalışacaq.

Çoxnövçülük yarışı Miluoki (ABŞ), Ştutqart (Almaniya), Birmingem (Böyük Britaniya) və Tokio (Yaponiya) mərhələlərindən ibarət idi. Miluoki mərhələsini təşkil etmək mümkün olsa da, son 3 mərhələ baş tutmayıb.

Qeyd edək ki, Tokio Yay Olimpiya Oyunları koronavirus pandemiyası ilə əlaqədar 2020-ci il 24 iyul - 9 avqustdan bu il 23 iyul - 8 avqusta təxirə salınıb. Yay Paralimpiya Oyunları isə 24 avqust - 5 sentyabrda gerçəkləşməlidir.

## Bədii gimnastlarımız Avropa çempionatında iştirak edəcəklər

Azərbaycan milli komandası bədii gimnastika üzrə 37-ci Avropa çempionatında iştirak edəcək.



Çempionat iyunun 9-dan 13-dək Bolqarıstanın Varna şəhərində keçiriləcək. İlkin siyahıya əsasən, Azərbaycanı yarışda 14 idmançı təmsil edəcək. Böyüklər arasında 8, gənclər arasında 6 gimnast yer alacaq.

Çempionatda 40 ölkədən 350-dən çox gimnastın iştirak edəcəyi gözlənilir.

# *Qılıncoynadanlarımız Dünya Kubokunda iştirak ediblər*

Macarıstanın paytaxtı Budapeştdə keçirilən kişi və qadın sablyaçılar arasında Dünya Kubokunda komanda yarışlarında qaliblər müəyyənləşib. Azərbaycan Qılıncoynatma Federasiyasından verilən məlumata görə, mübarizəyə 1/16 finaldan başlayan Anna Başta, Valeriya Bolşakova, Səbinə Kərimova və Sevil Bünyatovadan ibarət komandamız qadın sablyaçıların komanda yarışında Rumıniya yığmasını 45:32 hesabı ilə məğlub edib.



Təmsilçimiz ən güclü 8 komanda sırasına yüksəlmək uğrunda keçirilən görüşdə turnirin reytinq favoritlərindən sayılan, finalda Polşa yığmasına 44:45 hesabı ilə məğlub olan İtaliya seçmə kollektivinə 26:45 hesabı ilə uduzub.

9-16-cı yerlər uğrunda görüşdə Almaniya yığması üzərində 45:42 hesablı qələbə qazanan komandamız növbəti görüşdə ABŞ sablyaçılarına 32:45 hesabı ilə məğlub olub. 11-ci yer uğrunda Gürcüstanın qadınlardan ibarət sablya yığması ilə qarşılaşan millimiz rəqibini 45:25 hesabı ilə məğlub edib.

Qeyd edək ki, qılıncoynadanlarımız fərdi yarışlarda da medal qazana bilməyib.



## Boksçularımızın təlim-məşq toplanışı davam edir

Boksçularımız Türkiyənin Kastamonu şəhərində Avropa Olimpiya təsnifat turnirinə hazırlıqla bağlı təlim-məşq toplanışını davam etdirirlər. Komandamız yarışa baş məşqçi Umberto Orta Dominqesin rəhbərliyi altında hazırlaşırlar.

Təlim-məşq toplanışında Rüfət Hüseynov, Məsud Yusifzadə (52 kq), Ümid Rüstəmov, Tayfur Əliyev (57 kq), Cavid Çələbiyev, Ruslan Rüstəmov (63 kq), Sərxan Əliyev, Lorenzo Sotomayor, Nəbi İsgəndərov (69 kq), Kamran Şahsuvarlı (75 kq), Alfonso Dominqes (81 kq), Osnay Benkoma (91 kq) və Məhəmməd Abdullayev (91 kq-dan yuxarı) iştirak edirlər. Təlim-məşq toplanışı martın 21-dək davam edəcək.

Qeyd edək ki, Tokio Yay Olimpiya Oyunlarına vəsiqələrin sahibləri Parisdə müəyyənləşəcək. Yarış iyunun 4-də start götürəcək və 8-də başa çatacaq.

Xatırladaq ki, komandamızın heyətində hələlik Tayfur Əliyev Tokio-2020 Yay Olimpiya Oyunlarına vəsiqə qazanıb.

## *Avropa çempionatının mükafat fondu 1 milyon avroya qədər artırıldı*

Avropa Voleybol Konfederasiyası (CEV) 2021-ci ildə keçiriləcək Avropa çempionatı üçün mükafat fondunu artırıb. Bu barədə qurumun mətbuat xidməti məlumat yayıb. Kişi və qadın komandaları üçün mükafat fondu eyni olacağı qeyd olunur. Mükafat fondundan Avropa çempionatının qalibinə 500 min, gümüş medal sahiblərinə 250 min, bürünc medalçılara isə 150 min avro veriləcək. Dördüncü yerin sahibləri 100 min avro alacaqlar. Əvvəlki Avropa çempionatının mükafat fondu 750 min avro idi.

Kişilər arasında Avropa çempionatı sentyabrın 1-dən 19-dək Polşanın Krakov, Qdansk və Katovitse, Çexiyanın Ostrava, Finlandiyanın Tampere və Estoniyanın Tallin şəhərlərində baş tutacaq. Qadınların çempionatı avqustun 18-dən sentyabrın 4-dək Belqrad (Serbiya), Plovdiv (Bolqarıstan), Zadar (Xorvatiya) və Kluj-Napoka (Rumıniya) şəhərlərində keçiriləcək.

Kişilər və qadınlar arasında Avropa çempionatının hazırkı qalibləri Serbiyanın yığma komandalarıdır.

## *Mövsümün təşkili mövcud vəziyyətdən asılı olacaq*

Voleybol üzrə Azərbaycan çempionatları keçirilməyəcək. Yarışların keçirilməməsinə səbəb koronavirus pandemiyasıdır. Buna ölkəmizdə aprelin 1-dək karantin rejiminin tətbiq edilməsi və qapalı məkanlarda idman yarışlarının keçirilməsinə qadağa qoyulması səbəb olub. Buna görə də 2020-2021-ci il mövsümündə kişi və qadınlar arasında ölkə çempionatları, həmçinin 1-ci dəstədəki yarışlar təşkil edilməyəcək.

Koronavirus pandemiyasına görə ötən mövsüm də yarımçıq dayandırılmışdı. 2019-2020-ci il mövsümündə qaliblər elan olunmadan saxlanılıb.

2021-2022-ci il mövsümünün təşkili isə koronavirusla bağlı vəziyyətdən asılı olacaq.

# *Cüdoçularımız qarşıdakı yarışlara Özbəkistanda hazırlaşırlar*

Kişi cüdoçulardan ibarət Azərbaycan milli komandasının üzvləri qarşıdakı beynəlxalq yarışlara hazırlıq çərçivəsində Özbəkistanda təlim-məşq toplanışı keçirlər.

Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, Daşkənddə təşkil olunan beynəlxalq təlim-məşq toplanışında aparıcı cüdoçularımız iştirak edirlər. Beynəlxalq Cüdo Federasiyasının təşkilatçılığı ilə təşkil olunan məşqlərə Azərbaycan cüdoçuları ilə yanaşı, Fransa, Yaponiya, Koreya, Monqolustan, Almaniya, Rusiya, İtaliya, Braziliya, Çexiya, Ukrayna, Özbəkistan, İspaniya, Gürcüstan, Hollandiya, Qazaxıstan və digər ölkələrin yığmaları qatılıblar.

Qeyd edək ki, cüdoçularımız təlim-məşq toplanışından sonra martın 26-da Tbilisidə "Böyük dəbilqə" turnirində iştirak edəcəklər. Yarışda kişilər arasında Oruc Vəlizadə, Kəramət Hüseynov (hər ikisi 60 kq), Murad Fətiyev, Zelim Tskayev (hər ikisi 81 kq), Uşangi Kokauri (100 kiloqramdan yuxarı) mübarizə aparacaqlar. Qadınların mübarizəsində isə Aişə Qurbanlı, Leyla Əliyeva (hər ikisi 48 kq), Gültac Məmmədəliyeva və Şəfəq Məmmədova (hər ikisi 52 kq) güclərini sınayacaqlar.

Cüdoçularımız Tbilisi sınağından sonra Antalyada təşkil olunacaq "Böyük Dəbilqə" yarışında, eləcə də Portuqaliyada keçiriləcək Avropa çempionatında mübarizə aparacaqlar.

Xatırladaq ki, tatami ustalarımız bundan əvvəl Daşkənddə keçirilmiş "Böyük dəbilqə" turnirində iştirak ediblər. Yarışda Rüstəm Orucov (73 kq) və Məmmədəli Mehdiyev (90 kq) bürünc medal qazanıblar.



# Novruz - keçmişdən gələcək nəsillərə miras qalan el bayramı



*Dilqəm Quliyev,*
*pedaqogika üzrə*
*elmlər doktoru,*
*professor*

***"Novruz" - hərfi mənada "yeni gün" deməkdir. Amma ifadə etdiyi mərasim məzmununa görə keçidin bitməsi və yeni nizamın başlanğıcıdır. Novruza Bozqurd, Çağan, Ergenekon, Nevruz, Sultan Nevruz, Mart Doqquzu və s. də deyilmişdir. "Novruz" anlayışı bəzi deyiliş fərqlərilə bir çox türk xalqlarının dillərində işlənməkdədir.***

Novruz haqqında məlumatlara Biruni Əbu Reyhanın "Asarul Baqiye", Kaşqarlı Mahmudun "Divani Lüğət-it Türk", Balasaqunlu Yusif Has Hacibin "Kutadqu biliq", Ömər Xəyyamın "Novruznamə", Nizamülmülkün "Siyasətnamə", Nizami Gəncəvinin "İsgəndərnamə" və s. əsərlərində rast gəlirik.

Əl Biruninin yazdığı rəvayətdə isə Novruzun yaranmasını Azərbaycanla bağlayır. Bu rəvayətə görə Cəmşid Azərbaycana gələndə qızıl taxta oturur və insanlar onu öz çiyinlərində aparırlar. Günəşin şüası Cəmşidin üzərinə düşdükcə insanlar onu görürlər və sevincdən həmin günü bayram edirlər.

İlk mənbələrdən biri hesab olunan "Avesta"da Cəmşid haqqında belə bir məlumat verilir. "Zərdüşt Ahuraməzdadan ondan qabaq kiminlə danışdığını soruşur. Ahuraməzda cavabında deyir: Ey Zərdüşt, səndən qabaq mən Cəmşidlə danışmışam ("Yəsna", I



cild, səh. 96. Burada Cəmşid maldarlıq və əkinçiliyi yayan şəxs kimi göstərilir) və ona hökmranlıq əlaməti olaraq üzük və qılınc vermişəm (Büsutün yazılarında və Sasani abidələrində təsvir edilən Ahuraməzda qarşısında dayanan hökmdara üzük və ya hökmranlıq simvolu hesab edilən halqa verilir). Ona dünya səltənəti tapşırmışam".

Kitabda daha sonra deyilir: "Ahuraməzdanın əmri ilə Cəmşid Əryanəvyucdə, Daytiya çayının kənarında mələkələrin iştirakı ilə məclis düzəltmiş və Ahuraməzda da bu məclisə gəlib, Cəmşidi dünya hadisələrindən xəbərdar etmişdir". Deməli, Novruz bayramının banisi kimi tanınmış Cəmşid Araz çayı kənarında məclis qurmuş, burada məskən salmış və burada da dünya hadisələrindən xəbərdar olmuşdur. Əl Biruni "Asar əl-Baqiyyə" adlı əsərində bu haqda belə yazır: "Deyirlər, Cəmşid bir sıra şəhərlər gəzib, nəhayət, Azərbaycana gələndə taxta çıxdı və camaat onu çiyinlərində apardı. Günəş şüaları həmin taxta düşdü, camaat bu şöləni görüb həmin günü bayram etdi (Əl Biruni, "Asar əl-Baqiyyə". səh 242)". Digər bir mənbədə isə deyilir ki, Cəmşid dünyanı seyr edirdi. Azərbaycana çatdıqda, o, həmin gün taxta oturdu, camaat şadlıq etdi və dedilər ki, bu gün novruzdur - yeni gündür (M. Müzəffər. "Şərhe bistbab Molla Müzəffər fi mərfətə əl-Təqvim". 1330, h:q.). Azərbaycan xalqının təcrübəsində Novruz təqvim mərasimi olmaqdan çıxdıqdan sonra belə öz əhəmiyyətini azaltmamışdır. Bu da onun arxaik ritualdan gələn genetik əsaslara malik olmasının, başqa sözlə, bu xalqın öz bayramı olmasının təzahürüdür.

## Ümumbəşəri dəyərləri özündə ehtiva edən təntənə nümunəsi

Novruz bayramı şənliklərində kütləvi gəzintilər, xalq oyunları, yarışlar, rəqs və nəğmələr oxunması, məzhəkəçilərin və kəndirbazların çıxışları olurdu. Novruz bayramında müharibələr və qarşılıqlı çəkişmələr dayandırılır, sülh müqavilələri bağlanılır, hətta dəfn belə növbəti günlərə təxirə salınırdı. Bu bayram o qədər şad və şən bir bayram olmuşdur ki, həmin günlərdə təkcə təmtəraqlı təntənələr deyil, eyni zamanda, xəstələrə müstəsna diqqət və qayğı göstərilmiş, qohum və dostlara baş çəkilmiş, əzizlərin, yaxınların məzarları ziyarət edilmiş, bir-birinə qarşılıqlı inam və rəğbət ifadə edilmişdir. Novruz eyni zamanda ümumbəşəri dəyərləri özündə ehtiva edən bayram təntənəsi nümunəsidir.

Novruz bayramının Cəmşidin adı ilə bağlı olması haqqındakı məlumat bu bayramın meydana gəlməsi tarixini aydınlaşdırmağa müəyyən qədər əsas verməklə yanaşı, həm də bayramın Azərbaycanla bağlı olması, onun Azərbaycanda meydana gəlməsi məsələsini izah etmək nöqteyi-nəzərindən də maraqlı və əhəmiyyətlidir.

Novruz bayramının Azərbaycanla bağlı olması fikirləri əsrlər boyu davam edərək müasir dövrümüzə qədər gəlib çatmışdır. Ümumiyyətlə, orta əsr mənbələrinə xas olan belə bir cəhəti qeyd etməliyik ki, həmin dövrlərdə bütün bayramların hökmdarların adı ilə bağlanmasına xeyli səy göstərilmişdir. Bu isə dövrün xüsusiyyətlərindən irəli gəlirdi. Çünki orta əsrlərdə alim və şairlərin, demək olar ki, əksəriyyəti müəyyən hökmdarların tabeliyində və ya himayəsi altında olmuşdur.

## Meydan tamaşaları Azərbaycan peşəkar teatrının əsasını qoyub



Yaz bayramı haqqında yazılı məlumat eramızdan əvvəl 505-ci ildən məlumdur. Uzun əsrlər keçsə də, bu bayram getdikcə təkmilləşmiş, kütləviləşmiş və indiyə qədər də öz aktuallığını



saxlamaqdadır. Novruz bayramı ənənəvi şəkildə hər il respublikamızın bütün bölgələrində böyük təmtəraqla qeyd olunur. Novruzu bir ay əvvəldən qarşılamaq Azərbaycanda bir adət olub və bu gün də həmin adət yaşamaqdadır. Novruza qədər hər çərşənbə axşamı evlərin həyətində tonqal qalanar, tonqala üzərlik tökub xoş sözlər oxuyardılar.

Novruz Bayramında aşağıdakı adətlər yerinə yetirilir: Papaq atmaq (Qapıya atılan papağı boş qaytarmazlar), qulaq falına çıxmaq (Əgər gizlin dinlənən evdən xoş söhbət eşidilərsə, bu arzunun yerinə yetəcəyinə işarədir), tonqaldan tullanmaq (Tonqaldan tullanarkən bu ifadə deyilir: "Ağırlığım - uğurluğum odda yansın"), səməni yetişdirmək (Bu yazın gəlişinə və bitkilərin oyanmasına işarədir), səməni xonçaları bəzəmək, yumurta döyüşdürmək (Oyunun nəticəsində tərəflərdən biri digərinin tələblərini yerinə yetirir), qonaq getmək (Novruzda qohumların və qonşuların evinə qonaq gedərlər, onlara Novruz payı aparırlar), şam yandırmaq (Novruzda ailənin sayı qədər şam yandırarlar), yallı getmək (Azərbaycan xalqının qədim dövrdən bəri ifa etdiyi rəqsdir. Bunun mənası insanların birliyidir), Novruz oyunları oynamaq (Onlardan biri bayram günlərində meydan tamaşalarına daha çox üstünlük verilməsi, xalq oyunları çərçivəsində folklorumuzun zənginliyinin nümayiş etdirilməsidir) və s. Novruz günlərində daha çox göstərilən meydan tamaşaları Azərbaycan peşəkar teatrının əsasını qoyub desək, daha doğru





olardı. Kökləri ta Dədə Qorqud boylarınadək gedib çıxır ki, onlar da xalqın fəaliyyəti, məişəti, şənlik və toy ənənələri, həmçinin dünyagörüşü ilə bağlıdır. Qədim tarixə malik "Sayaçı", "Novruz", "Gəvsəç" kimi mərasimlərdə xor, rəqs və dialoqla yanaşı, dramatik süjetə, hərəkətə, bəzən isə bədii surətə də rast gəlinir.

Xalq arasında çox qədimdən yaranan "Motal-motal", "Qurd basdı", "Çövkən", "Cızıq turnası", "Gizlənpaç" (gizlən, qaç), "Oğru-oğru", "Şuma qədər", "Aşıq-aşıq", "Qoz-qoz", "Pul-pula", "Zorxana", "Sino", "Mil", "Qəpəq", "Fincan-fincan", "Bənövşə", "Dirədöymə", "Çalabaşı", "Yelləncək", "Maral oyunu", "Kilimarası" və s. oyunlarında həm uşaqlar, həm də böyüklər həvəslə iştirak edərdilər.

"Kosa-kosa", "Kəndirbaz", "Sim pəhləvan", "Masqara", "Gözübağlıca", "Cıdır" tamaşaları, qələncə oynatmaq, kəmənd atmaq, qurşaq tutmaq, daş qaldırmaq, at çapmaq və s. kütləvi əyləncəli milli oyunların bayramla əlaqədar keçirildiyi söylənilir. Sadaladığımız xalq oyunları zaman-zaman yol keçərək bu günümüzədək gəlib çatıb. Novruz bayramında həmçinin güləş yarışları təşkil edilir, meydanlarda yallı oynanılır, kəndirbazların tamaşaları göstərilir, mahnılar oxunur və aşıqlar deyişirlər.

"Novruz" mərasiminin mühüm epizodunu təşkil edən "Kosa-kosa" oyunu əsl teatr örnəyidir. Burada ardıcıl süjet, dramatik hərəkət, həmçinin xüsusi paltar geyinən, maska taxan aktyor var. Bir neçə gün davam edən mərasimlərdə ifa olunan "Xan-xan", "Mütriblərin rəqsi", "Gəlinlə qayınana deyişməsi" və s. epizodlar, burada oyun və tamaşa ünsürlərinin müstəqil əhəmiyyət kəsb etdiyini göstərir. Ozan-aşıq məclislərində, "Zorxana" səhnələrində, kəndirbazların çıxışlarında, habelə qədimdə el arasında geniş yayılan "Yuğ" mərasimində də meydan teatrı ünsürləri güclü olub.

Sovet hakimiyyəti zamanı Novruz bayramı qeyri-rəsmi şəkildə qeyd edilib, çünki dövlət orqanları yazın gəlişinin bayram kimi qeyd edilməsinə icazə verməyiblər. Lakin qadağalara baxmayaraq, çoxəsrlik ənənələrə sadiq olan hər bir azərbaycanlı ailəsi bu bayramı qeyd edib.

Şuşa şəhərinin yaxınlığında yerləşən Cıdır düzü tarixən Novruz bayramlarının keçirildiyi məkan kimi tanınıb. Vətən müharibəsindəki qələbəmizdən sonra xalqımız Novruz bayramını yenidən Qarabağ torpağında qarşılayaraq, qarçıçəyini, novruzgülünü, xarıbülbülü Şuşanın dağlarından dərəcək.

*Vətən müharibəsinin idmançı qəhrəmanları*

***44 gün davam edən Vətən müharibəsi ordumuzun möhtəşəm zəfəri və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi ilə başa çatdı. 30 ildən bəri inşa edilmiş istehkamları yarıb keçən Azərbaycan Ordusunun əks-hücum əməliyyatları hərb tariximizin şanlı səhifəsinə qızıl hərflərlə daxil edildi. Qəhrəman oğullarımızın böyük şücaətlə Şuşa da daxil olmaqla digər rayon və kəndlərimizin işğaldan azad edilməsi əməliyyatları hələ uzun müddət araşdırma mövzusu olacaq. Öz cəsarəti, igidliyi ilə Vətən torpağını azad edən və qətiyyəti ilə düşməni dizi üstə çökdürən hərbçilərimiz arasında müxtəlif idman növləri ilə məşğul olan idmançılarımız da az deyil. İkinci Qarabağ müharibəsinin başladığı ilk gündən ordu sıralarına qoşulan idmançılarımız bir vaxtlar idman arenalarındakı qələbəni döyüş meydanında da təkrarlamağa çalışdılar. Bu baxımdan ölkəmizdə fəaliyyət göstərən federasiyaların, klubların idmançıları fərqləndilər.***

***Ölkəmizdə uşaq, yeniyetmə və gənclərin fiziki tərbiyəsində aparıcı rol oynayan "Elxan" idman klubu da öz qəhrəman yetirmələrinin Vətən müharibəsindəki fəallığı ilə seçildi. Klubun təcrübəli yetirmələri bu çətin günlərdə ordumuzun yanında olmağı özlərinə şərəf bildilər. Öz səhifələrində Vətən müharibəsinə xüsusi yer ayıran "Olimpiya dünyası" qəzeti budəfəki sayında vətənpərvər idmançılar yetişdirən "Elxan" idman klubu ilə oxucularını tanış edəcək.***

yoxdur ki, ən azından bu gün məzarını ziyarət edərək təsəlli tapaq. Bir neçə müddətdən sonra qardaşım Elxan Nəbiyevə şəhid statusu verildi. Elxanın adını yaşatmaq üçün cüdo klubu yaratdım. Əsas məqsədim ondan ibarətdir ki, Elxan Nəbiyevin xatirəsini əbədiləşdirim, onun şücaətini cüdonun sirlərinə yiyələnən gənc idmançılarımıza və xalqımıza çatdırım. Bu gün Azərbaycanda şəhidlərin və milli qəhrəmanların adına küçə, məktəb və idman klubları yaradılıb. Çox sevinirəm ki, qardaşım Elxanın da adına belə bir klub var. Hər dəfə zala daxil olduqda, onun şəklini gördükdə və yarışlarda "Elxan" idman klubunun adı çəkildikdə sanki nəfəs alıram. Elxan millətini sevən vətənpərvər bir insan olub. Elə bu cəhəti onu şəhidlik kimi ali bir zirvəyə yüksəltdi. Klubumuzun idmançılarının formasının üzərində də Elxanın



İkinci Qarabağ müharibəsində iştirak edən digər tələbəm Toğrul Məmmədli isə Cəbrayıl və Qubadlı rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Qeyd etdiyim kimi,

mizlə birgə düşmənə qarşı mübarizə aparmağa hazır idik. Mən birinci Qarabağ müharibəsində iştirak etmişəm. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi və Füzuli rayonunun Şükürbəyli,




# Vətənpərvər idmançılar yetişdirən "Elxan" idman klubu

"Elxan" idman klubu 2014-cü il dekabrın 24-də yaranıb. Klub birinci Qarabağ döyüşlərində şəhid olan Elxan Nəbiyevin adını daşıyır. Cüdo idman növü üzrə ixtisaslaşan bu idman ocağında 200-ə yaxın yeniyetmə və gənc cüdonun sirlərinə yiyələnir.

Məlumat üçün bildirək ki, şəhid Elxan Nəbiyev 1994-cü ilin yanvarın 19-da Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi uğrunda gedən döyüşlərdə itkin düşüb. Sonradan ona şəhid statusu verilib. Vətən uğrunda canını fəda edən bu gənc həmyerlimiz özü də vaxtı ilə idmanın cüdo növü ilə məşğul olub. Belə ki, Elxan Nəbiyev 1977-ci ildə "Lokomotiv" idman cəmiyyətində Azərbaycanın Əməkdar məşqçisi Tərlan Həsənovun rəhbərliyi altında cüdonun sirlərinə yiyələnib. O, 1985-ci ildə idman ustalığına namizəd normasını yerinə yetirib. Şəhidin adını əbədiləşdirmək üçün onun qardaşı Eldar Nəbiyev "Elxan" idman klubunu yaradıb.

Bu yaxınlarda klubun direktoru Eldar Nəbiyev ilə əlaqə saxlayaraq, şəhid idmançımızın keçdiyi həyat yolu, klubun yaranması və Vətən müharibəsində iştirak edən yetirmələri barədə məlumat əldə etdik.

## "Qələbəmizə həsr olunmuş "3 qardaşlar" adlı məqalə"

"Ailədə 3 qardaş olmuşuq. Hər üçümüz də cüdo idman növünə böyük maraq göstərmişik. Cüdoya əvvəlcə böyük qardaşım Elxan yazılıb. O, karyerası ərzində respublikadaxili yarışlarla yanaşı, Sovet İttifaqı qəhrəmanı, general-mayor Həzi Aslanovun xatirəsinə həsr olunmuş beynəlxalq cüdo turnirinin qalibi olub. Hətta həmin yarışlardan birində hər üçümüz müxtəlif çəki dərəcəsində mükafatçılar sırasında yer almışdıq. Həmin vaxt qəzetlərin birində qələbəmizə həsr olunmuş "3 qardaşlar" adlı məqalə çap olunmuşdu. Bir sözlə, kifayət qədər nailiyyətlərimiz olub. Sonra Elxan hərbi

xidmətə yollandı. Qeyd edim ki, o, 1985-87-ci illərdə Macarıstanda hərbi xidmətdə olub. Qardaşım çox güclü qumbaraatan idi. Vətənə qayıtdıqdan sonra bir müddət müxtəlif işlərdə, o cümlədən idman dispanserində sürücü işləyib. Lakin o, bədnam qonşularımızın torpaqlarımıza təcavüzünə dözməyərək 1991-ci ildə könüllü şəkildə cəbhəyə yollandı. Həmin ərəfədə Şıxov batalyonu yarandı. Elxan da



həmin batalyona qoşulmuşdu. O, həmçinin Salyan Özünümüdafiə Batalyonunda da döyüşmüşdü. Onun sonuncu döyüşü isə 702 saylı briqadanın tərkibində oldu. O zaman həmin briqadaya polkovnik Şair Ramaldanov komandanlıq edirdi. O, 1994-cü il yanvarın 19-da Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi istiqamətində gedən döyüşlərdə itkin düşdü. Döyüş vaxtı onlara xəbər etmişdilər ki, Yuxarı Seyidəhmədli kəndinə kömək lazımdır. Qardaşım və bir neçə döyüşçü həmin kəndə köməyə gedərkən onların tankı yolda minaya düşüb. Elə həmin an ermənilər onların olduğu tanka qumbaraatanla atəş açıblar. Düzdür, bu hadisədə sağ qalan döyüşçülərimiz də olub. Amma qardaşım da daxil olmaqla, bir neçə döyüşçüdən heç bir xəbər çıxmadı. Təəssüf ki, onun və digərlərinin cəsədləri erməni silahlı birləşmələri tərəfdə qaldı. Ən təsirlisi də elə bu idi. Onun qəbri də

adı əks olunub. Bu, o deməkdir ki, onlar Elxanın və torpaqlarımız uğrunda şəhidlik zirvəsinə ucalanların adını əziz tutur, ruhuna hörmətlə yanaşırlar. Klubda məşq edən idmançılar dərk edirlər ki, onlar şəhidin adını daşıyan idman ocağının təmsilçiləridirlər. Buna görə də yetirmələrimiz yarışlarda layiqincə mübarizə aparmağa çalışırlar", - deyə Eldar Nəbiyev bildirib.

## "Şəhidin adını daşıyan klubun idmançıları da vətənpərvər olmalıdır"

Məlumat üçün qeyd edək ki, klubda cüdo, kikboksinq və karate bölmələri fəaliyyət göstərir. Bu gün klubun 200-ə yaxın yeniyetmə və gənc idmançısı var. Klubun üzvləri arasında Bakı və respublika birincilikləri ilə yanaşı, Avropa kuboku və digər beynəlxalq yarışların qalib və mükafatçısı olmuş idmançılar da az deyil.

"Elxan" İK-in həm direktoru, həm də baş məşqçisi olan Eldar müəllim məşq prosesindən danışarkən klubun 3 yetirməsini cəbhəyə yola saldığını və sağ-salamat qarşıladığını qeyd etdi: "Ölkəmizdə pandemiya səbəbindən tətbiq olunan xüsusi karantin rejiminə görə 1 ilə yaxındır ki, zalda məşqlər keçirilmir. Bir müddət əvvəl 2004-cü illərdən ibarət qrupla açıq hava şəraitində məşqlərə start vermişdik. Məşqlərdə mənə əsasən, köməkçi məşqçi kimi, oğlum Emil Nəbiyevlə yanaşı, tələbələrim Bayram Hüseynov və Kamil Cəbiyev köməklik edirdilər. Onu da qeyd edim ki, adlarını çəkdiyim hər iki tələbəm hərb tariximizin möhtəşəm zəfəri olan Vətən müharibəsində iştirak etdilər. Kamil Cəbiyev Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa şəhəri istiqamətində gedən döyüşlərin iştirakçısı olub.

Bayram Hüseynov isə Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının düşməndən azad edilməsi əməliyyatlarına iştirak edib. Bayram "Qubadlının azad olunmasına görə" və "Vətən uğrunda" medalı ilə təltif olunub.

mən balalarımı özüm cəbhəyə yola saldım və özüm də sağ-salamat onları qarşıladım. Zalımızda cüdoya ilk addımlarını atan Murad Mirzəzadə isə hazırda hərbi xidmətdədir. İnşaallah o da digər tələbələrim kimi, hərbi xidmətini uğurla başa vuraraq sağ-salamat öz ailəsinin yanına qayıdar.

Qeyd edim ki, milli komandamızın şərəfini qoruyan Bayram Hüseynov və Kamil Cəbiyev dəfələrlə Avropa kuboku və müxtəlif beynəlxalq turnirlərin qalib və mükafatçıları olublar. Onların hər ikisi hərbçilər arasında keçirilən yarışda da mükafatçılar sırasında yer alıblar. Bir sözlə, şəhidin adını daşıyan klubun idmançıları da vətənpərvər olmalı, Vətənin bu günündə öz borcunu yerinə yetirməli idilər. Mən bu gün onların hər biri ilə fəxr edirəm. Mənim üçün qürurverici-dir ki, illər sonra torpaqlarımızı azad edən və qardaşımın qisasını alanlar sırasında klubumuzun üzvləri də var. Hər zaman bu klubda uşaqların fiziki sağlamlığı ilə yanaşı onların mərd, qorxmaz və vətənpərvər ruhda böyü-



məsinə fikir vermişəm. Hər bir idman klubu həm də gələcəyin sağlam əsgərlərini hazırlayır. Onu da deyim ki, övladlarım da ordu sıralarına qoşulmaq üçün könüllü olaraq qeydiyatdan keçmişdilər. Mən və hər iki oğlum ordu sıralarına qoşulmağa və hərbçiləri-

Kərimbəyli və Aşağı Seyidəhmədli kəndi istiqamətində gedən döyüşlərin iştirakçısı olmuşam. Baxmayaraq ki, 53 yaşım var, bu gün də keçmiş döyüşçü kimi, cəbhə bölgəsinə yollanaraq döyüşlərdə iştirak etmək və qardaşımın qisasını almaq istəyirdim. Düzdür, bu mənə müəssər olmasa da, tələbələrim arzumu həyata keçirdilər. Bu gün qüdrətli ordumuz və müasir silahlarımız var. Bizim dövrdə belə silahlar olmayıb. Amma həmin dövrdə çox ürəkli mərd oğullar olub və qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıblar. Bu gün də hərbçilərimizdə o qəhrəmanlıq, mərdlik, qorxmazlıq və böyük ruh yüksəkliyi var. Məhz belə cəsur və qorxubilməz vətənpərvər oğulların qəhrəmanlığı sayəsində torpaqlarımız işğaldan azad edildi".

## "Çox istəyərdim ki, qardaşımın da adına beynəlxalq turnir keçirilsin"

Eldar müəllim bizimlə söhbətində şəhid qardaşı ilə bağlı bir arzunu da bildirdi: "Mən bu günə qədər heç vaxt heç kimə şəhid qardaşımın adından istifadə edib, müraciət etməmişəm ki, mənə kimsə köməklik etsin. Qardaşım Elxan da bu Vətən uğrunda şəhid olub. Şəhidlər arasında ayrı-seçkilik olmamalıdır. Bu insanlar torpaqlarımızın bütövlüyü uğrunda canlarını fəda ediblər. Tək istəyim odur ki, qardaşımın adını uca tutum. Bu gün şəhidlərimizin və milli qəhrəmanlarımızın adına bir sıra turnirlər keçirilir. Çox istəyərdim ki, qardaşımın da adına beynəlxalq turnir keçirilsin. Belə turnirlər vasitəsi ilə yeniyetmə və gənclərimiz şəhidlərimizi daha yaxından tanıyacaq və onların xatirəsi daim yaşayacaq".

***Azər Əlizadə***

# Formula 1




# Təhlükəyə meydan oxuyan sürət formulası

***Formula 1* - açıq təkər tipli avtomobillərin dövrəvi avtoyürüşləri üzrə dünya çempionatıdır. Formula 1 üzrə dünya çempionatı hər il keçirilir və Qran Pri statusu daşıyan ayrı-ayrı mərhələlərdən ibarət olur.**

***İlk dünya çempionatının birinci yarışı 1950-ci il mayın 13-də Böyük Britaniyanın Silverstoun trasında baş tutub. Hər ilin sonunda çempionatın qalibi müəyyən edilir. Çempionatda həm sürücülər, həm də komandalar yarışırlar. Sürücülər dünya çempionu titulu uğrunda, komandalar isə Mühəndislər Kuboku uğrunda mübarizə aparırlar.***

***Komandalar hər bir yarışa özünün hazırladığı şassi ilə çıxırlar, hər bir komandanı iki sürücü təmsil edir, sürücü çempionatda iştirak etmək üçün Beynəlxalq Avtomobil Federasiyasından SuperLisenziya almalıdır. Komandalar öz şassilərinə kənar motor istehsalçısından aldıqları motoru quraşdıra bilərlər.***

***Son idman reqlamentinə görə, motorun işçi həcmi 1,6 litrdir, silindrlərin sayı isə V6-dır, motorun çəkisi 145 kq-dır. Bu balaca motor 850-900 at qüvvəsi hasil edir və düz yollarda 370 km/saatadək sürət yığmağa imkan verir.***

***Ümumiyyətlə, Formula 1 maşınları ən dinamik maşınlar sayılırlar, yəni ən qısa vaxt ərzində sürətlənir və ən qısa vaxt ərzində dayanırlar. Formula 1 maşınlarını bolidlər, sürücülərini isə pilotlar da adlandırırlar.***

***"Olimpiya dünyası" qəzeti bu sayında Formula 1 haqqında ən maraqlı faktları oxucularına təqdim edir. İnanırıq ki, çoxsaylı oxucularımız bu faktları oxumaqla onları maraqlandıran suallara cavab tapa biləcəklər.***

## Milyonlarla dəyəri olan sürət maşını

Formula 1-in əsas xüsusiyyətlərindən biri iştirakçı komandalarda avtomobillərin normativ qaydalara və standartlara malik olmasıdır.



Bu ecaskar sürət yarışında iştirak edən avtomobillərin texniki göstəriciləri insanı heyrətə gətirir. Apardığımız araşdırmalara əsasən bildirək ki, Formula 1-də iştirak edən bolidin ehtiyat hissələri 80 min komponentdən ibarətdir. Həmin hissələrin 99,9 faizi bir-birinin işini tamamlayır.

Son illərin hesablamalarına görə, Formula 1 yarışlarında iştirak edən, 550 kq ağırlığı olan avtomobillərin orta qiyməti təxminən 15-17 milyon ABŞ dolları dəyərindədir. Bu qiymət təkcə bolidə aid edilir. Buraya təkmilləşmə, layihə və araşdırmaya ayrılan xərclər daxil deyil. Belə ki, Formula 1-də iştirak edən komandalar - "Ferrari", "Mersedes", "Red Bull", "McLaren" mövsüm ərzində ən yaxşı bolidlərin ərsəyə gəlməsi üçün orta hesabla 400-500 milyon ABŞ dolları xərcləyir.

## 3-4 kq çəki itkisi, dəqiqədə 190 dəfə döyünən ürək

Bolidin kabinində yürüş zamanı temperatur 50 C dərəcəyə çatır. Məhz bu səbəbdən bir yarış ərzində pilot



təxminən 3-4 kq çəki itirir. Bu itki 4 faizdən çox ola bilməz. Əks halda pilotun sağlamlığı və psixologiyası pozula bilər. Buna görə də, yürüş ərzində pilotlara xüsusi qablarda su içməyə icazə verilir. Qeyd edək ki, istilik temperaturu yüksək olan Avstraliya, Malayziya və Braziliya Qran-prilərində pilotlar təxminən 8 litr su içirlər. Tibb mütəxəssislərinin apardığı araşdırmalarda bildirilir ki, pilotların yürüş zamanı ürəyi dəqiqədə 190 dəfə döyünür.

## Hər biri 110 dollar 500-dən artıq yiv

Yarış zamanı təkcə pilotlar arıqlamır. Belə ki, bolidlərin şinləri təxminən yarım kiloqram kiçilir. Əgər adi



avtomobildə şinlər 60-100 min km arası yeyilirsə, bolidlərdə bu göstərici 90-120 km aralığında dəyişir. Yeri gəlmişkən qeyd edək ki, bolidlərin şinləri azotla doldurulur. Hər biri 40-41 min dollar olan şinlərdən komanda mövsüm ərzində 40 komplekt sifariş verir. Əgər şinlərdən söhbət düşübsə, şinləri saxlayan yivlərdən də danışmaq yerinə düşər. Alüminiumdan hazırlanan yivlərin hər biri 110 dollardır. Mövsüm ərzində komanda 500-dən artıq yivə pul xərcləyir.

## 160 km/s sürət üçün cəmi 4 saniyə

Formula 1-in bolidlərinin ümumi çəkisi 550-700 kq-a bərabərdir. Burada pilotun çəkisi və yanacaq nəzərə alınmır. Ümumilikdə bolid karbon və digər materiallardan hazırlanıb.

Aparılan müşahidələrə görə, bir komandanın ən cəld ekipaj heyəti pit-stop zamanı bolidin yanacağını və şinlərini 3 saniyə ərzində yeniləyə bilir.

Pilotların ən sadiq geyimi sayılan dəbilqələr son dərəcə ən yüksək texnologiya əsasında ərsəyə gəlib. Belə



ki, əgər qəza vaxtı boliddə yanğın baş verərsə pilot 800 dərəcəyə qədər istilikdən dəbilqə sayəsində qoruna bilər.

Saatda 200 km/s sürətlə hərəkətdə olan bolidin dayanması üçün 1,9 saniyə vaxt və 155 metr məsafə lazımdır. Qeyd edək ki, bolidin 160 km/s sürət yığması üçün 4 saniyə kifayət edir.

## Komandanın 28 tonluq yükü

Hər hansı bir ölkəyə Qran-pri üçün yollanan bir komandanın xeyli yükü olur. Bu təxminən 28 ton ağırlığında dəyişir. Bəs həmin yükün içərisinə nə daxildir? Belə ki, komandanın yükünün içərisində minimum 3 şassi, mühərrik, ehtiyat hissələri, təmir ləvazimatları, bokslar üçün qurğular daxildir. Bundan başqa yarış üçün mübarizəyə qoşulan komandanın 10 min adda



əşyası olur ki, onların arasında loqotipli 1500 kağız salfet də unudulmur.

## "Sükanı belə saxla!"

- Pilot bolidi tərk etmək üçün mütləq sükanı yerindən çıxarmalıdır. Bu sükan adi avtomobildə olduğu kimi kürə formasında deyil. Əgər belə deyilsə, bəs bu qeyri-adi formada istehsal edilən sükanın qiyməti nə qədərdir? Əvvəlcə qeyd edək ki, bolidini sükanının qiyməti ("Mersedes"i nəzərə alsaq) 50-100 min dollar dəyərindədir. Pilotların yarış zamanı gərginliyi nəticəsində sükanlar çox tez sıradan çıxır. Orta hesabla 80 saatdan sonra sükanda problemlər yaranır. Formula 1 komandası mövsüm ərzində öz bolidləri üçün təxminən 3-4 ədəd sükanı ehtiyatda saxlayır. Göründüyü kimi, sükanın qeyri-adi quruluşu və funksiyaları var. Bolidin idarə sistemi demək olar ki, sükandan asılıdır. Sükan çəkisi 1,3 kq olan və 25-ə yaxın düymədən ibarət çətin konfiqurasiyaya malikdir. Həmin düymələr pilotun 120 fərqli tapşırığını yerinə yetirir. Pilotların əllərindəki əlcəklər də sükandakı düymələri idarə etmək üçün nəzərdə tutulub.



Formula 1 yarışlarını yaxından izləyənlər bunu yaxşı bilir. Yürüş və pit-stop zamanı pilotla komandanın idarəçiləri arasında səsli əlaqələr qurulur. Bu vəziyyətə hər iki tərəfdən nəzarət üçün yaradılıb. Statistikaya nəzər salsaq görərik ki, yürüş vaxtı tərəflər arasında təxminən 2600 dəfə rabitə əlaqəsi yaranır. Bu say bəzi qran-prilərdə hətta bir qədər də arta bilir. Belə ki, Monakoda keçirilən yürüşdə pilotla idarəçilər arasında 3100 dəfə rabitə əlaqəsi yaradılıb. Məlumat üçün bildirək ki, rabitə əlaqəsi elektron sistemlə nizamlanır. Bu sistemin qurulması üçün iştirakçı komanda 4 milyon dollar xərcləyir. Kamera sistemi isə 140 min dollara başa gəlir.

## Bolidin yanacaq çəni dəmirdən deyil

Bolidlərin ehtiyat hisslərinin ayrı-ayrılıqda qiyməti barədə məlumat vermək yerinə düşər. Belə ki, bolidin karbondan hazırlanmış arxa anti-qanadları 20 min ABŞ dolları civarında dəyişir. 850 at gücündə olan mühərrik 600 min, yeddi yarımavtomat sürət qutusu 1 milyon 300 min dollara başa gəlir.



Çəkisi 4 kq olan disklərin biri 10 min dollar dəyərindədir. Boliddə əyləc cəmi bir şinə aiddir. Support, disk və bloklayıcıdan ibarət əyləc sistemi 6 min, bolidin bütün hissələrini əhatə edən karbonlu monokok (daşıyıcı kuza) 115 min dollardır. 80-120 litr yanacaq tutumuna malik olan kevlardan (çox yüngül karbon mənşəli güclü tekstil liflərindən ibarət bir material) hazırlanmış yanacaq çəni 20 min dollar dəyərindədir. 100 km məsafəyə 75 litr yanacaq sərf edən bolidin çəninə pit-stop zamanı 1 saniyədə 12 litr yüksək oktanlı benzin doldurulur.

Pilotun yarışboyu rahatlığını və təhlükəsizliyini təmin edən oturacaq da ucuz qiymətə başa gəlmir. Bunun üçün komanda 200 min dollar sərf edir.

*(ardı var)*

***Hazırladı:***
***Anar Əhmədov***

Şahmat



## Qrossmeysterimiz Fransada birinci oldu

Fransanın Kappel-lya-Qrand şəhərində keçirilən şahmat üzrə sayca 37-ci açıq çempionatının bullet yarışlarında Azərbaycan təmsilçisi Rauf Məmmədov



qalib adını qazanıb. Şahmatçımız turnirdə 15 turda 13 xal toplayıb. Yarış çərçivəsində keçirilmiş blits turnirində isə R.Məmmədov 8,5 xalla 4-cü olub. Digər təmsilçimiz Gülnar Məmmədova rapid yarışlarında 6,5 xalla qadınlar arasında birinci, ümumi hesabda isə 4-cü olub.

## “Karabakh is Azerbaijan” seriyasında böyük final

Səkkiz turnirdən ibarət “Karabakh is Azerbaijan” onlayn şahmat seriyası yarışı başa çatıb.

“Chess.az” saytının təşkil etdiyi və “Azerfon” şirkətinin baş sponsoru olduğu seriyanın 8 mərhələsindən sonra böyük final keçirilib. Final yarışında ötən mərhələlərdə ən yaxşı göstəricilərə malik olan 10 şahmatçı mübarizə aparıb. Yarışın qalibi adını seriya ərzində üç turnirin qalibi olmuş Azərbaycan şahmatçısı, İmişli şahmat məktəbinin yetirməsi Elnur Mehtiyev (8 xal) qazanıb. İkinci yerin sahibi gənc və perspektivli şahmatçımız, Bakı şahmat məktəbinin yetirməsi İsmayıl Qurbanov (6 xal) olub. Üçlüyü Quba şahmatçısı Şəhriyar Rəhmənov (4,5 xal) qapayıb.

“Karabakh is Azerbaijan” onlayn şahmat seriyasında ilk üç yeri tutmuş şahmatçılar “Azerfon” şirkəti tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırılacaqlar.

İki ay ərzində davam edən seriya yarışlarında Azərbaycan, Türkiyə, Rusiya, Ukrayna və Hindistandan ümumilikdə 264 şahmatçı iştirak edib.

Xatırladaq ki, seriya çərçivəsində “Jabrail Cup”, “Fuzuli Cup”, “Zangilan Cup”, “Qubadli Cup”, “Shusha Cup”, “Ağdam Cup”, “Kalbajar Cup”, “Lachin Cup” turnirləri keçirilib.

## Zəka sahibləri onlayn şahmat turnirində yarışıblar

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) və “IDEA” şahmat klubunun birgə təşkilatçılığı ilə onlayn turnir keçirilib. Yarışın nəticələrinə əsasən, Aytac Məmmədova, Səadət Bəşirli və Şəms Fərzəli ümumi hesabda ilk üçlükdə qərarlaşıblar. U-8 yaş kateqoriyasında birinci yeri Fatimə Mirzəliyeva tutub. Əsnad Baxışzadə yarışı ikinci, Aylin Nurəhmədli isə üçüncü pillədə başa vurublar.

U-10 yaş kateqoriyasında Ayan Allahverdili, İnci Ələkbərli və Nuray Məmmədli ilk üçlükdə yer alıblar.

U-12 yaş kateqoriyasında Fatimə Abdullayeva, U-14 yaş kateqoriyasında Kamilla Ələsgərova, 16 yaşadək şahmatçılar arasında isə Aysel Cəfərova fərqləniblər.

## Şahmatçılarımız mükafatçılar sırasına düşə bilmədilər

Şahmat üzrə “Titled Tuesday Blitz” Qran-Prisinin növbəti yarışı keçirilib. Turnirdə iştirak edən Azərbaycan şahmatçısı Eltac Səfərli 11 turdan 9 xal toplayaraq 7-ci yeri tutub. Digər şahmatçılarımız Vasif Durarbəyli 8, Fərid Mustafayev 7, İsmayıl Şahəliyev, Vüqar Manafov isə hərəyə 6,5 xal toplayıblar.

Yarışın qalibi rusiyalı Vladislav Artemiyev (10 xal) olub. Sonrakı iki pillədə 9,5 xalla onun həmyerliləri Yan Nepomnyaşi və Daniil Dubov qərarlaşıblar.

Turnirdə 788 şahmatçı iştirak edib.

## Millimizin üzvü İsveçrəyə göndərildi

Azərbaycanın şose velosipedi üzrə U-23 yığmasının üzvü Ayan Xankişiyeva İsveçrənin Eqle şəhərindəki Dünya Velosiped Mərkəzində (WCC - World Cycling Centre) ilin sonunadək təlim keçəcək.

Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) mətbuat xidmətindən verilən məlumata görə, bununla əlaqədar Beynəlxalq Velosipedçilər İttifaqı (UCI) ilə razılıq əldə olunub.

Martın 8-dən İsveçrədə olan idmançı hazırlıq proseslərində iştirak edəcək və WCC komandasının heyətində beynəlxalq yarışlarda iştirak etməklə, ustalıq səviyyəsini artıracaq.

Qeyd edək ki, UCI hər il planetin müxtəlif ölkələrindən məhdud sayda gənc və perspektivli idmançıları xüsusi seçim əsasında WCC-yə cəlb edir.




Bölgə xəbərləri

## Şahmat turnirinin qalibləri mükafatlandırılıblar

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin (BŞGİBİ), Ucar Rayon Gənclər və İdman İdarəsinin, rayon Uşaq-Gənclər İdman Şahmat Məktəbinin (UGİŞM) və “İDEA” şahmat klubunun birgə təşkilatçılığı ilə onlayn şahmat turnirinin açılış mərasimi keçirilib.



Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunan turnirin açılışında Baş İdarənin rəisi Raqif Abbasov, Ucar Rayon Gənclər və İdman İdarəsinin rəisi Əhliman İbrahimov, UGİŞM-in direktoru Rahib Hüseynov, paytaxtın şahmat idman növü üzrə əlaqələndiricisi Gündüz Vəliyev, Vətən müharibəsi qazisi, “Suqovuşanın azad olunmasına görə” medalı ilə təltif olunan Nəsir Nuriyev və digərləri iştirak ediblər.

Raqif Abbasov tədbirdə çıxış edərək Vətən uğrunda canlarını fəda edən bütün şəhidlərimizin xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağını vurğulayıb. O, şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğının bundan sonra da davam edəcəyini bildirib.

Açılış mərasimindən sonra onlayn şahmat turnirinə start verilib. İsveçrə sistemi ilə keçirilən və yeddi turdan ibarət turnirdə 110 şahmatçı iştirak edib.

Turnirin qalibləri mükafatlandırılıblar.

## *MMA döyüşçümüz Ukraynada qızıl medal qazandı*

Ukraynanın Lutsk şəhərində MMA üzrə beynəlxalq turnir keçirilib. Beynəlxalq turnirdə Elçin Hüseynov qızıl medal qazanıb. “Poladov” idman klubunun təmsilçisi E.Hüseynov (93 kq) finalda Ukraynanın “Patriot Berezne” klubunun idmançısı Aleksandr Horodniuka qalib gəlib.



## Atletika üzrə yarışın qalibləri müəyyənləşib

Bərdə Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə şəhər stadionunda 2004-2005-ci və 2006-2007-ci il təvəllüdlü oğlanlar arasında 100 metr məsafəyə qaçış turniri keçirilib. Turnirin açılışında



Bərdə Rayon Gənclər və İdman İdarəsinin rəis müavini Aydın Qasımov çıxış edərək yarış barədə məlumat verib və iştirakçılara uğurlar arzulayıb.

Respublikanın Əməkdar məşqçisi Nurəddin Əliyev çıxış edərək I və II Qarabağ müharibəsində idmançıların göstərdikləri şücaətdən danışıb.

Yarışın nəticələrinə əsasən, 2004-2005-ci il təvəllüdlü atletlər arasında Asəf Məmmədov, Nicat İsazadə və Asiman Bayramov ilk üçlükdə yer alıblar. 2006-2007-ci il təvəllüdlülər arasında isə Məhəmməd Quliyev fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Sinan Abbasov yarışı ikinci, Hüseyn Musayev üçüncü pillədə qərarlaşıblar.

Yarışın qalibləri Bərdə Rayon Gənclər və İdman İdarəsinin müvafiq dərəcəli diplomları və xatirə hədiyyələri ilə təltif olunublar.

## Olimpiya lisenziyalı yarış təxirə salındı

Mərakeşin paytaxtı Rabatda keçirilməli olan karate üzrə Premyer Liqa yarışı təxirə salınıb. Yarış pandemiya səbəbindən




oktyabrın 29-31-i tarixlərinə keçirilib.

Bu səbəbdən də həmin yarışın əvəzinə Portuqaliyanın paytaxtı Lissabonda keçiriləcək Premyer Liqa yarışı Olimpiadaya lisenziya xalları verəcək. Bu yarış 30 aprel - 2 may tarixlərində təşkil olunacaq.

Qeyd edək ki, Rabat Premyer Liqa yarışı aprelin 9-11-də keçirilməli idi.

## Dünya kubokunun finalı Budapeştdə keçiriləcək

Cənubi Koreyada təşkili planlaşdırılan beşnövçülük üzrə dünya kubokunun finalının Macarıstanın paytaxtı Budapeştdə keçirilməsi qərara alınıb. Bu barədə Beynəlxalq Müasir Pentatlon İttifaqının (UIPM) İcraiyyə Komitəsi qərar qəbul edib. Mayın 13-16-da keçiriləcək turnirin yeri koronavirus pandemiyası səbəbindən dəyişdirilib.

Budapeştdə keçiriləcək dünya kuboku finalı ərəfəsində test yarışları da təşkil olunacaq.

## Kapoeyraçılar açıq Bakı turnirində bir araya gəldilər

Solo kapoeyra üzrə açıq Bakı turnirinə yekun vurulub. Azərbaycan Kapoeyra Federasiyasından (AKF) verilən məlumata görə onlayn formatda təşkil olunan yarış Bakı Şəhəri Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) və AKF tərəfindən təşkil olunub.

Yarışda bölgələrdən də olmaqla 50-yə yaxın idmançı mübarizə aparıb. BŞGİBİ-nin rəisi Raqif Abbasov və AKF-nin prezidenti Günel Muradova turnir iştirakçılarına videomüraciət ünvanlayaraq onlara uğurlar arzulayıblar.

Yarışın qalibləri hakimlərin verdikləri qiymətlər əsasında müəyyənləşib.

# FUTBOL



## Azərbaycan Premyer Liqası: “Neftçi” liderliyini qorudu

Ötən həftə sonu futbol üzrə Azərbaycan Premyer Liqasında XX turun oyunları keçirilib. Turun açılış matçında “Qarabağ” sonuncu pillədə qərarlaşan “Sabah”ı qəbul edib. “Azərsun Arena”dakı qarşılaşma Ağdam təmsilçisinin 2:0 hesablı qələbəsi ilə yekunlaşıb. Meydan sahiblərinin heyətində Filip Ozobiç 15-ci dəqiqədə penaltidən yararlana bilməyib. 30 yaşlı xorvatiyalı yarımmüdafiəçi 42-ci dəqiqədə hesabı açmağa müvəffəq olub. 73-cü dəqiqədə isə Mahir Emreli fərqi iki topa çatdırıb.

Günün digər oyununda “Sumqayıt” klubu “Keşlə” ilə qarşılaşıb. “Kapital Bank Arena”da təşkil olunan oyunda qalib müəyyənləşməyib - 2:2.

Qonaq komandadan hər iki qolu Azər Salahlı 4-cü və 74-cü dəqiqələrdə vurub. Lakin Cəmaləddin Xocaniyazov 48-ci, Rəhim Sadıxov isə 79-cu dəqiqədə meydan sahiblərinin bərabərlik qollarını vurub.



Turun ikinci oyun günündə daha iki qarşılaşma təşkil olunub. Əvvəlcə “Qəbələ” komandası “Zirə”ni qəbul edib. Qəbələ şəhər stadionunda təşkil olunmuş qarşılaşma heç-heçə ilə yekunlaşıb - 1:1. Hesabı 23-cü dəqiqədə meydan sahiblərindən Vinko Medimoreç açıb. Bu qoldan 6 dəqiqə sonra “Qəbələ”dən Merab Gigauri birbaşa qırmızı vərəqə ilə meydandan qovulub. Qonaqlar say üstünlüyündən 90+4-cü dəqiqədə yeni transfer Fakundo Melivilonun qolu ilə yararlanmağı bacarıblar.

Tura “Neftçi” və “Səbail” komandalarının oyunu ilə yekun vurulub. “Bakcell Arena”da keçirilən görüş meydan sahiblərinin 4:0 hesablı qələbəsi ilə başa çatıb.

Matçda hesabı 5-ci dəqiqədə Namik Ələskərov açıb. 65-ci dəqiqədə Stiven Monroz “ağ-qaralar”ın üstünlüyünü 2 topa çatdırıb. 4 dəqiqə sonra Yusuf Laval baxımlı qolla rəqibi 3-cü dəfə məyus edib. Görüşdə son nöqtəni isə 75-ci dəqiqədə Mert Çelik qoyub.

Bu qələbədən sonra xallarını 42-yə çatdıran “Neftçi” zirvədəki yerini qoruyub. “Neftçi” ilə bərabər eyni xala malik olan “Qarabağ” ikinci pillədə qərarlaşıb. İlk üçlüyü aktivində 30 xalı olan “Zirə” klubu tamamlayır. “Sumqayıt” 26 xalla dördüncü, “Qəbələ” isə 23 xalla beşincidir. Aktivində 18 xalı olan “Səbail” altıncı, 17 xala malik olan “Keşlə” isə yeddincidir. Turnir cədvəlinin sonuncu pilləsində 16 xalla “Sabah” klubu qərarlaşıb.




## Avropadan transfer xəbərləri

### İspaniya

“Barselona” “Mançester Siti”nin futbolçusu Serxio Aqueronun transferini demək olar ki, həll edib. Kataloniya klubu bir neçə gün əvvəl 32 yaşlı hücumçuya transfer təklifi göndərib. Argentinalı oyunçu bu təklifi müsbət dəyərləndirib.

“Barselona”nın futbolçusu Serxio Roberto yay transfer pəncərəsində klubu tərk edə bilər. Kataloniya təmsilçisinin 29 yaşlı müdafiəçinin 2022-ci ilin iyununda başa çatacaq müqaviləsini yeniləməyəcəyi məlum deyil. Klub futbolçu üçün qarşı tərəfdən 60 milyon avro tələb edəcək.

Kataloniya klubu “Liverpul”un futbolçusu Jorjinyo Veynaldumla yaxından maraqlanır. Klub tərəfindən 30 yaşlı yarımmüdafiəçiyə uzunmüddətli müqavilə təklif olunub. Niderlandlı oyunçu özü də “Barselona”ya keçməyə razıdır.

Qeyd edək ki, Veynaldumun “mersisaydlılar”la müqaviləsi 2021-ci ilin yayında başa çatacaq. O, La Liqa təmsilçisinə azad agent kimi keçə bilər.

“Sevilya”nın futbolçusu Brian Gili də komandanın diqqət mərkəzinə düşüb. Kataloniya təmsilçisi ispaniyalı oyunçunu bu yay transfer pəncərəsində almağı planlaşdırır. “Barselona” futbolçu üçün 15 milyon avro xərcləməli olacaq.

### İngiltərə

“Atletiko”nun futbolçusu Joao Feliks karyerasını İngiltərədə davam etdirə bilər. “Mançester Siti” portuqaliyalı yarımmüdafiəçinin xidmətində maraqlıdır. “Şəhərlilər”in baş məşqçisi Pep Qvardiola 21 yaşlı oyunçunu bu mövqeyə əsas namizəd hesab edir. Ona görə də klub futbolçunu bu yay almaq istəyir. Qeyd edək ki, Joao Feliksin “Atletiko” ilə müqaviləsinin müddəti 2026-cı ilin yayına qədərdir.

* * *

“Mançester Yunayted” qapıçısı David de Xeanı satıb, iki yeni qapıçı almağı planlaşdırır. Ona görə də Premyer Liqa təmsilçisi 30 yaşlı qolkiperi uyğun məbləğə satmağı nəzərdən keçirəcək. Həmçinin klub Serxio Romeronu da göndərmək niyyətindədir.

* * *

Misir yığmasının futbolçusu Məhəmməd Salah “Liverpul” klubunu tərk edə bilər. Səbəb isə 29 yaşlı hücumçunun “qırmızılar”ın baş məşqçisi Yurgen Klopp ilə münasibətlərin korlanmasıdır.



Salahı “Barselona” və “Bavariya” klubları istəyir. Forvardın özü İspaniyada, “Real” və ya “Barselona”da oynamaq arzusunu gizlətmir.

* * *

“Çelsi”nin hücumçusu Olivier Jiru yayda klubunu dəyişə bilər.

34 yaşlı fransalı futbolçu klubu tərk etmək istəyir. O, MLS klublarından gələn hər hansı təklifi gözləyir.

“Çelsi” “Bavariya”nın yarımmüdafiəçisi Kinqsli Koman ilə maraqlanır. London klubunun rəhbərliyi 24 yaşlı futbolçunu komandadan ayrılacağı gözlənilən Kristian Pulişiçin əvəzləyicisi kimi görür. Pulişiç yeni baş məşqçi Tomas Tuhelin gəlişindən sonra komandadakı vəziyyətindən razı deyil. Onunla “Mançester Yunayted”, “Liverpul” və “Bavariya”nın maraqlandığı bildirilir.

### İtaliya

“Yuventus”un Çempionlar Liqasında mübarizəni dayandırmasından sonra Kriştianu Ronaldonun komandadan ayrılacağına dair xəbərlər artır. Turin klubunun ilinə 31 milyon avro qazanan Ronaldonu 60 milyon avroya satmağa hazır olduğu bildirilib.

“Qoca sinyora” eyni zamanda müdafiəçi Merih Demiral və hücumçu Paulo Dibalanın qalmasında maraqlı deyil.

“Yuventus”un “Atletiko”dan icarəyə götürdüyü futbolçusu Alvaro Morata komandada qalmaq niyyətindədir. Klub mövsümün sonunda ispaniyalı oyunçunun icarə müddətini uzatmağı planlaşdırır.

* * *

“Rubin”in futbolçusu Xviça Kvaratsxeliya İtaliyada çıxış edə bilər.

20 yaşlı yarımmüdafiəçi ilə “Yuventus” və “Milan” maraqlanır. Bu klubların skautları gənc futbolçunun oyununu izləmək üçün martın 28-də Gürcüstan və İspaniya yığmaları arasında DÇ-2022-nin seçmə mərhələ matçını izləyəcəklər.

* * *

“Milan” futbolçusu Hakan Çalhanoğlu ilə yeni müqavilə imzalamaq üçün razılığa gəlib. Klub 27 yaşlı yarımmüdafiəçi ilə sözləşməni 2025-ci ilədək uzadacaq. Türkiyəli oyunçunun illik maaşı isə 4 milyon avro olacaq. Qeyd edək ki, Çalhanoğlu bu mövsüm 30 matça çıxaraq, 6 qol vurub və 11 qolun ötürməsini verib.

* * *

“İnter”in futbolçusu Romelu Lukaku “Mançester Siti”yə keçməkdən edib. Futbolçu bu transferə razı deyil. Belçikalı




oyunçu karyerasının ən yaxşı vaxtlarını keçirdiyi “İnter”dən ayrılmağı düşünmür.

* * *

“Roma” futbolçusu Rik Karsdopla müqaviləni yeniləyib. 26 yaşlı müdafiəçi ilə sözləşmənin 2025-ci ilin iyun ayınadək uzadıldığı bildirilib. Hollandiyalı oyunçu 2017-ci ildən paytaxt təmsilçisində çıxış edir. O, ötən mövsümü “Feyenoord”da keçirib.

### Fransa

PSJ futbolçusu Anxel di Mariya ilə bu yay başa çatacaq müqavilənin müddətini uzadıb. 33 yaşlı yarımmüdafiəçi ilə 1+1 illik yeni müqavilə imzalanıb.

Qeyd edək ki, argentinalı oyunçu 2015-ci ilin yayından Paris təmsilçisinin şərəfini qoruyur. O, bu mövsüm Fransa çempionatında çıxdığı 19 matçda 3 qol vurub, 8 qolun ötürməsini verib.



Dünya_idmanı

# Azarkeşlər yaşıl meydanlara qayıdır

İngiltərə kubokunun final matçına azarkeşlər buraxıla bilər. Belə ki, yerli hökümət karantindən sonra oyunlarda çox sayda azarkeşin iştirakını sınamaq istəyir. Belə olacağı təqdirdə, matçlar başlamazdan əvvəl və yekunlaşandan sonra fanatlardan koronavirus testi götürüləcək. İlkin mərhələ olaraq mayın 15-də keçiriləcək İngiltərə kubokunun finalına 20 min azarkeşin buraxılması planlaşdırılır. Əgər bu metod uğurlu olarsa, digər idman tədbirlərində 10.000-dək azarkeşin iştirakına icazə veriləcək.




## İstanbulda "Ülkər" fidanlara qərq oldu

"Fənərbağça" tibb işçilərinə təşəkkür etmək məqsədi ilə ev oyunlarını keçirdiyi "Ülkər" stadionunun tribunalarına 1000 ədəd fidan yerləşdirib. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. Superliqasının 29-cu turunda "Gənclərbirliyi" ilə matçdan əvvəl tribunalara 1000 ədəd fidan qoyulub. Həmin anların fotoları klubun sosial şəbəkə hesablarında paylaşılıb və qeyd edilib: "Bu fidanları 14 mart - Tibb Günü münasibəti ilə həyatları boyu və koronavirus pandemiyası müddətində bizim üçün gecəsini gündüzünə qatan tibb işçilərinə həsr edirik. Bir nəfəsin qiymətini ən yaxşı başa düşdüyümüz vaxtda səhiyyə işçilərinə təşəkkürlərimizi 21-26 mart "Meşə Həftəsi"ndə əkəcəyimiz 5000 fidan ilə göstərmək istəyirik".



Qeyd edək ki, həmin matçda "Fənərbağça" 1:2 hesabı ilə məğlub olub.



*Üfüqi*

2. Novruz bayramının atributu. 4. Novruz rəqslərində əsas hissə. 5. Novruz qəhrəmanlarından biri. 6. Novruz bayramının qeyd olunduğu Cənubi Asiya dövləti. 8. Novruz şirniyyatı. 10. Bahar bayramı. 14. Zorxana idman növlərindən biri. 16. Bayramın ilk çərşənbəsi. 17. Novruz bayramının ilaxır çərşənbəsi.

*Şaquli*

1. Azərbaycan şəhərlərində pəhləvanların güləşdikləri meydan. 3. Yaz fəslinin sinonimi. 5. Novruz bayramının milli oyunlarından biri. 7. Bayramın üçüncü çərşənbəsi. 9. Xalq oyunlarından biri. 11. Kosanın bayram payı topladığı torba. 12. Novruz bayramının digər atributu. 13. Xalq oyunlarından biri. 15. Novruz bayramında pəhləvanların kütlə qarşısında göstərdiyi oyun.

## Kayl Uokerin evini "Apollo" qoruyacaq



İngiltərənin "Mançester Siti" klubunun futbolçusu Kayl Uoker evinin təhlükəsizliyini təmin etməyə qərar verib. Müdafiəçi bu məqsədlə it almağı məqsədəuyğun sayıb. Uoker doberman iti üçün 40 min funt sterlinq ödəyib. Futbolçu heyvanına Apollo adını verib. Bu addım "Rokki" filmindəki qəhrəmanın şərəfinə atılıb. Qeyd edək ki, bir müddət əvvəl "Everton"un qapıçısı Robin Olsenin evinə silahlı qarətçilər girib.

## Kasilyas həyat yoldaşından ayrıldı

İspaniyanın "Real Madrid" klubunun sabiq oyunçusu İker Kasilyas həyat yoldaşı Sara Karbonerodan boşanıb. Bu barədə veteran qapıçının keçmiş xanımı instaqram səhifəsində məlumat paylaşıb. Karbonero bunun düşünülmüş qərar olduğunu yazıb. O, ayrılığın əsl səbəbini açıqlamayıb.

Qeyd edək ki, keçmiş cütlüyün Martin və Lukas adlı 2 övladı var.


**olimpnews.az - sizin saytınız**





## Fransa çempionatının özünəməxsus xüsusiyyəti

Fransa çempionatının 29-cu turu çərçivəsində PSJ və "Nant" komandaları arası keçirilən qarşılaşma zamanı parislilərin futbolçusu Anxel di Mariyanın evi qarət edilib. Məraqlıdır ki, hadisə zamanı futbolçunun qohumları evdə olublar. Məlumata görə, argentinalının əvəzedilməsinə səbəb məhz bu hadisədir. Belə ki, PSJ-nin baş hakimi Maurisio Poçettino qarət xəbərini aldıqdan sonra əvəzetmə edib. Di Mariya isə dərhal evə yollanıb. Bir neçə şəxsin qarət məqsədi ilə evə daxil olduğu zaman idmançının ailə üzvləri, hətta uşaqları da evdə olub. Məlumata görə, evdə olan şəxslər qarətçilərin evə daxil olmasını eşitməyiblər. Nəticədə isə oğrular seyfin içərisində olanları aparmağa müvəffəq olublar. Hazırda polis qarətçilərin axtarışı ilə məşğuldur. Qeyd edək ki, bir müddət sonra həmin gecə qarətçilər ilə Markinyusun valideynlərinin də üz-üzə gəldiyi məlum olub. Hadisə zamanı onlar evdə olub və qarətçilər evə daxil olaraq, onları qirov götürüb. Məlumata görə, hazırda oyunçunun valideynlər özlərini yaxşı hiss edir.

Xatırladaq ki, bir müddət əvvəl PSJ-nin futbolçusu Serxio Riko, Tiaqu Silva və Erik-Maksim Şupo-Motinq qarətçilərin qurbanı olmuşdu.


Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.



*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19